# Şuşa Humanitar Kollecində tədbir



Bu günlərdə Şuşa Humanitar Kollecində dahi siyasətçi, ulu öndərimiz Heydər Əliyevin 95 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Azərbaycan himninin sədaları altında ulu öndərin həyat və fəaliyyətilə əlaqədar videoçarxa baxışdan sonra kollecin direktoru Rasim Mehdiyev sözü tərbiyə işləri üzrə direktor müavini Könül Hüseynovaya verdi. O, çıxışında qeyd etdi ki, ulu öndərimiz kimi dahilər əsrdə bir dəfə doğulur, xalqının taleyində böyük unudulmaz izlər qoyur. Azərbaycanın inkişafı, dünya ölkələrindəki şöhrəti onun adı ilə bağlıdır. Ulu öndərin fəaliyyəti dövründə elm, təhsil, mədəniyyət, sənaye, kənd təsərrüfatı, tibb və sair sahələr təsəvvür olunmaz sürətlə inkişaf etmişdir.

Ümummilli liderimizin rəhbərliyi ilə Azərbaycan iqtisadi cəhətdən və siyasi baxımdan regionun liderinə çevrilmişdir.

Sonra çıxış edənlər qeyd etdilər ki, dahi rəhbərin dövründə təkcə paytaxtda deyil, eyni zamanda rayonlarda da yüzlərlə məktəblər, mədəni-maarif ocaqları, uşaq bağçaları, sənaye müəssisələri, idman qurğuları açılmışdır. Onun dövründə bir çox sənət adamları, o cümlədən Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Süleyman Rəhimov, Rəsul Rza və digərlərinə Sosialist Əməyi Qəhrəmanı fəxri adı verildi, başqa ölkələrdə, respublikalarda azərbaycanlı dahilərin heykəlləri, büstləri qoyuldu.

Respublika Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verildi, bir çox ali məktəblərin adları dəyişdirilərək milliləşdirildi. Ümumiyyətlə, Heydər Əliyevin təhsil siyasəti nəticəsində mükəmməl biliyə və yüksək



mənəviyyata malik vətəndaşlar formalaşdırıldı.

Fərəhlə qeyd olundu ki, ulu öndər 1982-ci ilin dekabr ayında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçildi. Bu fakt onun dünya siyasətindəki nüfuzundan xəbər verir.

Dahi rəhbər Azərbaycan dilinin dünya dilləri arasında tanınması yolunda da əlindən gələni etdi. Çıxış edənlər qeyd etdilər ki, 1970-ci illərdə “Vahid dil” siyasətində düzgün yol seçərək Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırdı.

Heydər Əliyev “Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dili Azərbaycan dilidir” demişdir. Elə bununla da öz dilimiz dövlət dili kimi özümüzə qaytarılmışdır.

Tədbirdə çıxış edənlər onu da qeyd etdilər ki, Yeni Azərbaycan Partiyasının yaradılması və təşkili də dahi rəhbərin adı ilə bağlıdır. 1992-ci ildə YAP-ın yaradılması, siyasi sistemin yaradılması tarixi idi ki, bu tarixi ancaq Heydər Əliyev kimi dahi şəxsiyyətlər yarada bilərdi.

Tədbir iştirakçıları qeyd etdilər ki, Heydər Əliyev siyasəti hörmətli Prezidentimiz, ulu öndərimizin layiqli davamçısı İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

O, hər sahədə—təhsil, mədəniyyət, sənaye, kənd təsərrüfatı, iqtisadiyyat, neft və qaz sənayesi, nəqliyyat və sair sahələrdə respublikamızı lider respublikaya çevirmiş, siyasi aləmdə örnək respublika etmişdir. Unutmayaq ki, dünya, o cümlədən qərb kulturalizmi siyasətini bizdən öyrənir.

Tədbirin sonunda kollecin şagirdlərdən ibarət xor kollektivi ulu öndərə həsr olunmuş musiqi əsərləri ilə çıxış etdilər.

**Zabit CAVADOV,**
**“Respublika”.**

Respublika.- 2018.-13 may

Seyidov Elçin Faiq oğlunun adına JN 0601 kod nömrəsi 30401004

ALLAH RƏHMƏT ELƏSİN